Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası
Rəyasət Heyətinin 29 aprel 2022-ci il tarixli qərarı ilə
əlavə və dəyişiliklər edilmişdir.

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA ALİ ATTESTASİYA KOMİSSİYASI RƏYASƏT HEYƏTİNİN 13 dekabr 2019-cu il tarixli**

# QƏRARI

1. 11 iyun 2019-cu il tarixinədək ilkin müzakirəsindən bir ildən çox müddət keçməmiş dissertasiya işləri Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli 728 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnamə”nin tələbləri nəzərə alınmaqla ilkin müzakirədən keçirilmədən müvafiq dissertasiya şurasına təqdim edilə bilər.

2. 11 iyun 2019-cu il tarixinədək ilkin müzakirəsindən bir ildən çox müddət keçmiş dissertasiya işləri Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli 728 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnamə”nin tələbləri nəzərə alınmaqla yenidən ilkin müzakirədən keçirilərək müvafiq dissertasiya şurasına təqdim edilə bilər. Bu halda iddiaçıların fəlsəfə doktoru imtahanlarının müddətinə həmin Əsasnamənin 2.9-cu bəndi şamil edilmir.

3. 11 iyun 2019-cu il tarixinədək elmi seminardan keçmiş dissertasiya işləri Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli 728 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnamə”nin tələbləri nəzərə alınmaqla yenidən elmi seminardan keçdikdən sonra müdafiəyə təqdim edilə bilər.